**«Vergi sazişləri: Xüsusi məsələlər» mövzusunda seminar**

Bu günlərdə Ankara şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergi sazişləri: Xüsusi məsələlər» mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi ikiqat vergitutmanın aradan qaldırılması məsələlərində bağlanmış razılaşmaların şərh edilməsi və bu razılaşmaların tətbiqi proseslərində işlək biliklərin əldə edilməsindən ibarət olmuşdur. Seminar zamanı hüquqi şəxslərin mənfəət, məşğulluq fəaliyyətindən gəlirlər, intellektual mülkiyyət və investisiya gəlirləri ilə bağlı məsələlərdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında razılaşmalar müzakirə mövzusu olmuşdur. Tədbirdə ikiqat vergitutmanın aradan qaldırılması sahəsində formalaşmış beynəlxalq təcrübə barədə məlumatlar verilmiş və iştirakçı dövlətlərin təcrübəsi dinlənilmişdir.

Seminarda ölkəmizi Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin Xüsusi rejimli müəssisələrin auditi şöbəsinin əməkdaşı Xaləddin Əhmədov təmsil etmişdir.